

*Oktay ABDULLA, Prezident təqaüdçüsü*

## VƏTƏN

Vallah, bir dünyaya dəyişmərəm mən,
Qanımda təpərim, qeyrətdi, Vətən!
Bu sonsuz kainat, günəşim odur,
Başımın tacıdı, şöhrətdi, Vətən!

Axtarsan dünyada gözəl-göyçəyi,
Hər yandan qoxuyan gülü, çiçəyi.
Sözümün gövhəri budur gerçəyi,
Tükənməz arzular, istəkdi Vətən.

İblistək, şeytantək ara qatanlar,
Alçaqlıq gətirər Vətən satanlar.
Bir görün nə demiş müdrik atalar,
Laləzar, gülüstan, cənnətdi, Vətən!

Xəta var qəfildən qaçılmaz olur,
Qala var, səngər var, alınmaz olur.
Vətəni sevəndə basılmaz olur,
İlahi qüdrətdi, heyrətdi, Vətən!

Keçər günortadan düşər kölgələr,
Azman meşələri sərinlik ələr.
Büllur bulaqları şerimə gələr,
Şəkərim, şirinim, şərbətdi, Vətən.

O böyük Yaradan sahmana salmış,
Çox şair söz deyib xəyala dalmış.
Vaqifin, Vurğunun ruhuna alqış,
İnsanlıq dünyası, məktəbdi Vətən!

Dərd tüğyan eylədi, şəmində oldum,
Tapılmır çarələr, qəmində oldum.
Fikrimin qatarı cəmində oldum,
İrəvan, Ərdəbil, Dərbənddi, Vətən!

Əzəlin kim idi, sonun kim oldu?
Ətirli baxçalar, güllərin soldu.
Ah, necə sızladım, gözlərim doldu,
Qəlbimi həsrətin, göynətdi, Vətən!

Çörəyi, neməti, süfrəsi boldu,
Döyüşən əsgəri qəhrəman oldu.
Şəhidlik zirvəsi Tanrıya yoldu,
Ata nəsihəti, hikmətdi Vətən!

Düşmənin, yağının səsini kəsəm!
Yarımçıq olmaqdan uzağam, pəsəm.
Biləsən mən səni bütöv görməsəm,
Qəbrim də torpaqda qürbətdi, Vətən!

Ağrımız, acımız olmasın gərək,
Diləyim, istəyim çox həzin, kövrək.
İnsanlar, torpağı, vətəni sevək,
Hər daşın ruhumu, titrətdi, Vətən!

Kamalım, düşüncəm yanıltmaz zəndim,
Vətəndir qürurum o kiçik kəndim!
Mən zirvələr qalxdım, zirvələr endim,
Oktaya sevməyi öyrətdi, Vətən!

## AZƏRBAYCAN BAYRAĞI

Düz yoldasan, doğrusan,
Yanındayam, çağırsan.
Sən xalqımın uğrusan,
Azərbaycan bayrağı!

Qanadımsan, qolumsan,
Haqqa gedən yolumsan.
Ululardan ulusan,
Azərbaycan bayrağı!

Sənə qurban canımız!
Halalındı qanımız.
Hamımızsan, hamımız,
Azərbaycan bayrağı!

Ayın solmaz bədrisən,
Yerin, göyün sehrisən.
Haqqın qızıl sətrisən,
Azərbaycan bayrağı!

Qüdrətin var yenilməz,
Qeyrətin var əyilməz.
Ruhun, rəngin dəyişməz,
Azərbaycan bayrağı!

Ey ruhumdan güc alan!
Düşmənimdən bac alan.
Xankəndində dalğalan,
Azərbaycan bayrağı!

Sən dilimin ərzisən,
Dövlətimin rəmzisən.
Sülhün, haqqın səsisən,
Azərbaycan bayrağı!

## NECƏSƏN

Dərdlə sirdaş, dərdə yaxın tən oldum,
Bir özüməm, bir içimdə mən oldum.
Yağış oldum, duman oldum, çən oldum,
Dağ aranım, ay şəhərim, necəsən?

Əyilməyən dağ olsam da dözümdə,
Məni ara, inci axtar sözümdə.
İşıq olsan zərrə qədər gözümdə,
Bir deyərdim ay səhərim, necəsən!

Sazım yoxdur, bir layla çal dilində,
Qoy qalanım, qoy alışım bəmində!
Yurdumu yox, yurd salmısan sinəmdə,
Gələn təbim, ay ürəyim, necəsən?!

Görəmmədim fərmandarın özünü
Səndən aldım cəsarəti, dözümü.
Müjdə verdim ürəyimə sözümü,
Duyan qəlbim, ay fərəhim, necəsən?!

Söyləmədim, daş götürüb, daş atdın,
Kimə gərək daş ürəklər, daş addım.
Qərib eldə yaşadıqca yaşatdın,
De bir bilim, ay təhərim, necəsən?!

Bahar gəldi güllər təki açırıq,
Zaman qovur tələsirik, qaçırıq.
Sondan sona son mənzilə çatırıq,
Payız-qışım, ay bəhərim, necəsən?!

Gözəl şair kamalına min əhsən,
Oktay deyir qəlbimdəsən, öndəsən.
Qərinələr min il keçsin məndəsən,
Ay sevincim, ay kədərim, necəsən?!

## QUCAĞINDASAN

Azalmır sinəmdən atəşin, közün,
Ruhumun, qəlbimin ocağındasan.
Gündüzlər günəşsən, gecələr ay sən,
Yerlərin, göylərin qucağındasan.

Ey dinim, imanım qınama məni,
Görməsə də aylar, illər, göz səni.
Tez tapar istəyim, təbim söz səni,
Bu könül dünyamın otağındasan.

Bir şair vəsfinə "yaxşı" dil dedi,
Əsən mehə, axan çaya sel dedi.

Dəli könlüm çəmən, çiçək, gül dedi,
Vəsfini etdikcə dodağımdasan.

Çəkilsin dağların dumanı, çəni,
O yerdə sevinc var, neynirik qəmi.
Çox yoxuş, çox eniş gözləyir səni,
Zamanın gərdişin sınağındasan.

Oktayın baharı, nə də yazıdı,
Könlümün gül sevən ahıl çağıdı.
Gördüyüm gülüstan, cənnət bağıdı,
Hayana baxıram, qabağımdasan.